*Şəhidlər ölməz, Vətən bölünməz!*



*"Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır".*

Heydər Əliyev

# XIZI

Qəzet 1990-cı ildən çıxır.
№ 4-5 (186-187) 310-311
avqust-sentyabr 2023-cü il

Təsisçi: Xızı Rayon İcra Hakimiyyəti




## "Şəhidlər bizim qəlbimizdə əbədi yaşayacaq".

**İLHAM ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

# Şuşanın Daşaltı kəndində şəhid olmuş Araz Rüstəmov 31 ildən sonra doğma yurdunda - Xızı rayonunun Giləzi qəsəbəsində torpağa tapşırıldı







**Birinci Qarabağ müharibəsi zamanı 1992-ci il yanvarın 26-da Şuşa rayonunun Daşaltı kəndində gedən döyüşlərdə şəhid olmuş Araz Bəgi oğlu Rüstəmovun qalıqları 31 ildən sonra doğma yurduna - Xızı rayonunun Giləzi qəsəbəsinə gətirilərək torpağa tapşırılıb.**

Avqustun 24-də vida və dəfn mərasimində şəhidin ailə üzvləri ilə yanaşı, Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, YAP Xızı rayon təşkilatının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xızı rayon bölməsinin, hüquq-mühafizə orqanlarının rəsmiləri, Müdafiə Nazirliyinin əməkdaşları, rayonun ictimaiyyət nümayəndələri, hərbçilər, qazilər, məktəblilər, ətraf kənd və qəsəbələrdən gəlmiş sakinlər, KİV nümayəndələri iştirak ediblər.

(Davamı səhifə 2-də)

# Şuşanın Daşaltı kəndində şəhid olmuş Araz Rüstəmov 31 ildən sonra doğma yurdunda - Xızı rayonunun Giləzi qəsəbəsində torpağa tapşırıldı

*(Əvvəli səhifə 1-də)*

Şəhid Araz Rüstəmov Giləzi qəsəbə qəbristanlığındakı Şəhidlər Xiyabanında dəfn olunub.







Şəhidin məzarı üzərinə tər güllər düzülüb, əklillər qoyulub.

Dəfn mərasimində şəhidlərimizin ruhu dualarla yad edilib, əziz xatirələri dərin ehtiram hissi ilə anılıb.

*Araz Bəgi oğlu Rüstəmov 1968-ci il aprelin 7-də Xızı rayonunun Giləzi qəsəbəsində dünyaya göz açıb. Ailədə üç qardaş, bir bacı olublar. Ailənin sonbeşiyi olan Araz Qazaxıstanda hərbi xidmətini başa vurduqdan sonra Xızıya qayıdaraq, kolxozda və yem emalı müəssisəsində, daha sonra Bakıda "Azərkitab"da işləyib. Birinci Qarabağ müharibəsi başlayanda ermənilərin Qarabağda törətdiyi vəhşiliklərə dözməyib, ailəsinin xəbəri olmadan öz istəyi ilə cəbhəyə gedib. Cəbhəyə gedərkən 24 yaşı var idi. O, Şuşa və Xankəndi ətrafındakı kəndlər uğrunda gedən döyüşlərdə fəal iştirak edib. 1992-ci il yanvarın 26-da Daşaltı əməliyyatı zamanı itkin düşüb. Həmin vaxtdan etibarən Araz Rüstəmov barədə heç bir məlumat olmayıb.*

Qeyd edək ki, Şuşa rayonunun Daşaltı kəndi ərazisində 31 ildən sonra qalıqları aşkarlanaraq, şəxsiyyəti müəyyənləşmiş yeddi nəfərdən biri məhz şəhid Araz Rüstəmovdur.

Nəhayət ki, Giləzidə yaşayan Rüstəmovlar ailəsinin 31 illik nigarançılığına, həsrətinə son qoyuldu.

Şəhid Araz Rüstəmovun 31 ildən sonra qalıqlarının tapılması və doğma yurduna gətirilərək torpağa tapşırılması onun yolunu son nəfəsinədək gözləyən, oğul həsrəti ilə nisgilli həyat yaşayan və bu həsrətlə də dörd ay əvvəl dünyasını dəyişmiş 91 yaşlı mərhum anasının - Firəngiz xanımın narahat ruhuna əbədi dinclik gətirəcək.

***"XIZI"*, R.M.**

*24 avqust 2023-cü il*



# Şəhid Saleh Qurbanovun məzarı ziyarət edilib

**2022-ci il sentyabrın 12-də Ermənistan ordusunun bölmələri tərəfindən törədilən genişmiqyaslı təxribatın qarşısının alınması zamanı şəhid olmuş kapitan Qurbanov Saleh Möhübbət oğlunun vəfatından bir il ötür. Bununla əlaqədar, şəhidin doğulub boya-başa çatdığı və torpağa tapşırıldığı Giləzi qəsəbəsində keçirilmiş ildönümü mərasimində Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov və rayonun ictimaiyyət nümayəndələri də iştirak etmişlər.**




*Saleh Möhübbət oğlu Qurbanov 1990-cı il aprelin 14-də Xızı rayonunun Giləzi qəsəbəsində anadan olub. 2020-ci ilin sentyabr-noyabr aylarında Vətən müharibəsi zamanı Cəbrayıl, Xocavənd və Laçın istiqamətində gedən döyüşlərdə savaşıb. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.*

*Kapitan Saleh Qurbanov 2022-ci il sentyabrın 12-də Ermənistan silahlı qüvvələri tərəfindən törədilən genişmiqyaslı təxribatların qarşısının alınması zamanı şəhidlik zirvəsinə yüksəlib.*

*Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Saleh Qurbanov Azərbaycan Prezidenti İlham Əliyevin 5 noyabr 2022-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.*




Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov ictimaiyyət nümayəndələri ilə birgə Giləzi qəsəbə qəbristanlığındakı Şəhidlər Xiyabanına gələrək şəhid Saleh Qurbanovun məzarını ziyarət etmiş, önünə gül dəstələri düzmüşlər. Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ruhuna dualar oxunmuşdur.



Mərasimdə çıxış edən İH-nin başçısı Xəzər Aslanov Vətən uğrunda canlarını əsirgəməmiş şəhid övladların qəhrəmanlıqlarından danışmış, hər bir şəhidimizin xatirəsinin bizim üçün əziz və müqəddəs olduğunu vurğulamış, eləcə də dövlətimizin hər zaman şəhid ailələrinin yanında olmasını, onlara diqqət və qayğı göstərməsini qeyd etmişdir.

***"XIZI"*, R.M.**

*13 sentyabr 2023-cü il*

# Xızı rayonunda 27 Sentyabr - Anım Günü ilə əlaqədar silsilə tədbirlər keçirilib






**Sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi qeyd olunur. Prezident İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən təsis edilən 27 Sentyabr - Anım Günü torpaqlarımızın ərazi bütövlüyü uğrunda 44 günlük Vətən müharibəsində canlarından keçmiş şəhidlərimizin ölməz ruhlarına olan dərin ehtiramın təcəssümüdür.**

27 Sentyabr - Anım Günü ilə əlaqədar Xızı rayonunda silsilə tədbirlər təşkil olunub.

Sentyabrın 27-də Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi altında RİHBA-nın işçiləri, YAP Xızı rayon təşkilatının fəalları, hüquq-mühafizə orqanlarının, idarə, təşkilat, müəssisələrin rəhbərləri və əməkdaşları, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri, sakinlər Xızı şəhərinin mərkəzi küçəsi boyunca "Şəhidlər Xiyabanı" xatirə-abidə kompleksinin qarşısınadək keçirilən yürüşdə iştirak ediblər.

Yürüş iştirakçıları abidə kompleksinin önünə tər gül dəstələri düzərək, şəhidlərin əziz xatirəsini böyük ehtiramla yad ediblər.

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov anım mərasimində çıxış edib. O bildirib ki, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olan Vətən oğullarının ölməz xatirəsi həmişə yaddaşlarda yaşayacaq. Məhz onların 44 günlük Vətən müharibəsində savaş meydanlarında göstərdikləri şücaət, qəhrəmanlıq nəticəsində torpaqlarımız işğaldan azad olunub.

Çıxışda Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Azərbaycan Ordusunun öz qüdrətini bütün dünyaya sübut etdiyi, düşmən üzərində böyük qələbə qazandığı, şəhidlərin qanının yerdə qalmadığı vurğulanıb.

Daha sonra Xızı rayonunun müxtəlif yaşayış məntəqələrində dəfn olunmuş şəhidlərimizin məzarları ziyarət olunub.

Saat 12:00-da bütün respublika ərazisində olduğu kimi, Xızı rayonunda da Vətənin azadlığı uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

***"XIZI", R.M.***
*27 sentyabr 2023-cü il*

# Şəhid ailələri ziyarət olunub

**44 günlük Vətən müharibəsi hərb tariximizin ən şanlı səhifəsi, şəhidlər isə qürur mənbəyimizdir. Xızı rayon rəhbərliyi Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin ruhuna ehtiramla yanaşır, işıqlı xatirələrini uca tutur, qəhrəman Vətən övladlarının ailələrini mütəmadi olaraq ziyarət edir.**

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi ilə rayonun rəsmi şəxsləri 27 Sentyabr - Anım Günü ilə əlaqədar şəhid ailələrinə baş çəkiblər.

Görüşlər zamanı şəhid ailələrini narahat edən məsələlər öyrənilərək problemlərin həlli nəzarətə götürülüb, ailələrin hər birinə yardım göstərilib.

***"XIZI", R.M.***
*26 sentyabr 2023-cü il*

















# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş konfrans keçirilib





**"Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır"**

**Heydər Əliyev, Ümummilli Lider**





**Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatı tərəfindən təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq, Xızı şəhərində sentyabrın**




**20-də müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş konfrans keçirilib.**

Heydər Əliyev Mərkəzində təşkil olunmuş konfransda Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, Yeni Azərbaycan Partiyası Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Elnarə Akimova, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü Zərifə Quliyeva, Milli Məclisin deputatı Müşfiq Məmmədli, Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının Abşeron-Xızı regionu üzrə məsul işçisi Orxan Bayramov və rayonun partiya fəalları iştirak ediblər.

Konfrans iştirakçıları, əvvəlcə, Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

Heydər Əliyev Mərkəzində davam etdirilən konfransda Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz və ölməz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Konfransı giriş sözü ilə açan YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunduğunu, Ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının Azərbaycan dövlətinin müstəqilliyinin möhkəmləndirilməsində və inkişafında mühüm rol oynadığını bildirib.



Ayaz Quliyev qeyd edib ki, xalqın təkidli tələbilə Ulu Öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı millətin itirmək üzrə olan inamını özünə qaytardı. Dahi rəhbərin qətiyyəti və müdrik siyasəti nəticəsində qısa zamanda atəşkəs rejiminə nail olmaqla, sosial- iqtisadi islahatlar başlandı, dövlətin atributları yaradıldı. Ölkədə sabitlik və qanunların aliliyi təmin olundu, gələcək inkişaf üçün möhkəm iqtisadi təməl formalaşdırıldı. Xarici siyasət milli maraqlara uyğunlaşdırıldı. O vaxt başlanmış və bu gün uğurla davam etdirilən siyasi və iqtisadi islahatlar Azərbaycanın hərtərəfli inkişafı üçün çox mühüm rol oynayır. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik şəkildə sürətlə inkişaf edir.

***(Davamı səhifə 5-də)***





# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş konfrans keçirilib



(Əvvəli səhifə 4-də)

Daha sonra Ayaz Quliyev bildirib ki, bu gün işğaldan azad olunmuş ərazilərdə infrastruktur layihələri icra olunur, yollar salınır, körpülər tikilir, sosial binalar-məktəblər, uşaq bağçaları, xəstəxanalar inşa edilir. Əhalinin yüksək həyat şəraitinin təmin olunması üçün lazimi addımlar atılır. Artıq məcburi köçkünlər öz doğma yurd-yu-



valarına qayıdırlar. Böyük Qayıdış Proqramı cənab Prezidentin rəhbərliyi ilə uğurla icra olunur. Əminliklə deyə bilərik ki, bu gün Ulu Öndər Heydər Əliyevin ruhu şaddır. Çünki bi-



zə əmanət qoyduğu müstəqil Azərbaycan elə onun görmək istədiyi kimi güclü, qüdrətli və əzəmətlidir.

Konfransda çıxış edən Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov bildirib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi Azərbaycan dövlətçilik tarixinin xüsusi əhəmiyyət kəsb edən dövrüdür. Onun ölkəyə rəhbərliyinin birinci dövründə bugünkü Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyinin təməli qoyuldu. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin növbəti dövründəki mürəkkəb şəraitdə isə qısa müddətdə milli həmrəylik və ictimai-siyasi



sabitlik bərpa olundu. İctimai-siyasi sabitlik və uzaqgörən xarici siyasət hesabına Azərbaycan dünyanın iri investorları üçün cəlbedici ölkəyə çevrildi.

Xəzər Aslanov daha sonra bildirib ki, Azərbaycanın çağdaş tarixinin milli intibah dövrü müdrik dövlət xadimi



Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndər Azərbaycan dövlətçiliyini xaos və böhran məngənəsindən çıxararaq, xalqımızın taleyində misilsiz



xilaskar missiyasını şərəflə yerinə yetirib. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır.O, Azərbaycanın müasir tarixinə yeni missiya ilə daxil olub. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır.

Konfransda çıxış edən Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü Zərifə Quliyeva, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Elnarə Akimova, Milli Məclisinin deputatı Müşfiq Məmmədli hal-hazırda müasir müstəqil Azərbaycanın Ümummilli Liderimizin görmək istədiyi kimi qüdrətli olduğunu, bu qüdrətini günbəgün artırdığını, yeni hədəflərə və nailiyyətlərə doğru



əmin addımlarla irəlilədiyini və üçrəngli bayrağımızın ən yüksək zirvələrdə qürurla, əzəmətlə dalğalandığını, Ulu Öndər Heydər Əliyevin müdrik siyasətinin daim yaşadığını, onun əbədiyaşar ideyalarının və zəngin dövlətçilik irsinin Azərbaycan xalqını firavan və parlaq gələcəyə apardığını qeyd ediblər.

Natiqlər vurğulayıblar ki, Ulu Öndərin Azərbaycan xalqı və dövləti qar-



şısındakı əvəzedilməz xidmətləri onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir. Azərbaycanda uğurlu dövlət quruculuğu həyata keçirilir, bütün sahələrdə köklü islahatlar aparılır, ölkəmizin beynəlxalq əlaqələri inkişaf etdirilir, dünyada mövqeyini möhkəmləndirir.





Çıxışlarda qeyd olunub ki, bu gün Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu müdrik siyasət uğurla davam etdirilir, möhtəşəm nailiyyətlərlə müşayiət olunur. Prezident İlham Əliyev Ümummilli Liderin bütün arzularını yerinə yetirib. Ulu Öndərin ən



böyük arzusu Qarabağın azad edilməsi idi. İndi onun varisi, Ali Baş Komandan İlham Əliyevin əzəməti və qətiyyəti sayəsində Qarabağ azad nəfəs alır. Azərbaycan xalqı hər zaman dahi Heydər Əliyevi sonsuz ehtiram və məhəbbətlə yad edəcək.

Sonda Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul olunmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub. Bir qrup partiya fəalı Yeni Azərbaycan Partiyası Xızı rayon təşkilatının fəxri fərmanları ilə təltif ediliblər.

***"XIZI", R.M.***
*20 sentyabr 2023-cü il*

# Baş Prokuror Kamran Əliyev Şabran rayonunda vətəndaşları qəbul edib





**Alınan məlumata görə, Baş Prokuror Kamran Əliyev sentyabrın 1-də Şabran Rayon Prokurorluğunun inzibati binasında Şabran, Siyəzən, Xızı və digər rayonlardan olan vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl Baş Prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Şabran şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, dahi şəxsiyyətin əziz xatirəsini böyük ehtiramla yad edib.

Qəbulda iştirak edən 23 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, mülki xarakterli mübahisələr, habelə sosial problemlərlə bağlı qaldırılan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Baş Prokuror Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra Baş Prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

*"XIZI"*

# Xızıda "Əsrin müqaviləsi" tarixi Zəfərimizə gedən yolun başlanğıcıdır" mövzusunda tədbir keçirilib

**"Heydər Əliyev ili" çərçivəsində Xızıda "Əsrin müqaviləsi" tarixi Zəfərimizə gedən yolun başlanğıcıdır" mövzusunda tədbir keçirilib.**

Sentyabrın 21-də Heydər Əliyev Mərkəzinin konfrans zalında təşkil edilmiş tədbirdə Xızı Rayon İcra Hakimiyyətinin rəsmiləri, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyinin, eləcə də digər idarə, təşkilat və müəssisələrin əməkdaşları iştirak ediblər.

Əvvəlcə, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov açıb. O bildirib ki, Ulu Öndər Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilib və qısa müddət ərzində ölkəmizin əsaslı inkişafına güclü təkan verən resurslar əldə edilib.





"1994-cü ilin 20 sentyabrında dünyanın 7 ölkəsinin böyük neft şirkətləri ilə imzalanan "Əsrin müqaviləsi" ölkəmizin dünya xəritəsində mövqeyini möhkəmləndirib" - deyən A.Hüseynov daha sonra qeyd edib ki, bu müqavilə təkcə neft sahəsində deyil, digər sahələrdə çalışan şirkətlərin də ölkəmizə olan marağını artırıb.

Çıxışda bildirilib ki, 2002-ci ildə Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməli qoyulub. Ölkə iqtisadiyyatının inkişaf etdirilməsi yolunda "Əsrin müqaviləsi" Ulu Öndərin birinci şah əsəri idisə, Bakı-Tbilisi-Ceyhan neft kəməri ikinci şah əsəridir.

Daha sonra Azərbaycana rəhbərliyinin birinci və ikinci dövründə Ümummilli Lider Heydər Əliyevin qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və müdrik qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafından, həyatımızın bütün sahələrində aparılmış köklü islahatlardan və dəyişikliklərdən, Ulu Öndərin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən layiqincə davamının uğurlu nəticələrindən bəhs edilən çıxışlar dinlənilib.

Sonda tədbir iştirakçılarına Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

*"XIZI", R.M.*
*21 sentyabr 2023-cü il*

# Xızı Rayon İcra Hakimiyyəti başçısının 2023-cü ilin oktyabr ayı ərzində keçirəcəyi səyyar görüş-qəbullar barədə məlumat

| S/N | Rayon, şəhər | Səyyar görüş-qəbulun keçiriləcəyi yaşayış məntəqəsi | Səyyar görüş-qəbulun keçiriləcəyi yer | Səyyar görüş-qəbulun keçiriləcəyi tarix | Səyyar görüş-qəbulun keçiriləcəyi saat |
|---|---|---|---|---|---|
| 1 | Xızı | Fındığan kəndi | Fındığan kənd İƏD üzrə nümayəndəliyinin inzibati binası | 06.10.2023 | $11^{00}$ |
| 2 | | Baxşılı kəndi | Baxşılı kənd İƏD üzrə nümayəndəliyinin inzibati binası | 13.10.2023 | $11^{00}$ |
| 3 | | Qarabulaq kəndi | Qarabulaq kənd İƏD üzrə nümayəndəliyinin inzibati binası | 18.10.2023 | $11^{00}$ |
| 4 | | Məşədi Həsən kəndi | Məşədi Həsən bələdiyyəsinin inzibati binası | 20.10.2023 | $11^{00}$ |

# Təhsil işçilərinin sentyabr konfransı keçirilib





**Sentyabrın 11-də Sumqayıt şəhərində Abşeron-Xızı regionu üzrə təhsil işçilərinin sentyabr konfransı keçirilib.**

Əvvəlcə, konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə tər gül dəstələri düzüblər.

Azərbaycan Respublikası Dövlət Himninin səsləndirilməsi ilə başlayan konfransda daha sonra Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin ölməz xatirələri bir dəqiqəlik sükutla yad olunub.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli və Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının müavini Teymur Səmədov konfransda çıxış edərək, ölkəmizdə həyata keçirilən təhsil siyasəti, təhsilimizin dünya təhsil sistemlərinə inteqrasiyası, bu sahədə müasir infrastuktur və maddi- texniki bazanın formalaşdırılması, kadr potensialının gücləndirilməsi məsələləri barədə danışıblar.

Daha sonra Abşeron-Xızı Regional Təhsil İdarəsinin tabeliyində olan təhsil müəssisələrinin 1illik fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Konfransda Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva 2022-2023-cü tədris ilinin yekunlarına dair hesabat məruzəsi ilə çıxış edib. İlhamə Abdullayeva görülmüş işlər və əldə edilmiş nailiyyətlər, o cümlədən yeni dərs ilində qarşıda duran vəzifələr barədə geniş məlumat verib.

Sonra bir sıra məktəblərin müəllimləri və uşaq bağçalarının tərbiyəçi-müəllimləri ötən tədris ilində qazandıqları nailiyyətlərə görə mükafatlandırılıblar.

Konfrans iştirakçıları Sumqayıt şəhər 1 nömrəli Uşaq Gənclər İnkişaf Mərkəzinin dərnək üzvlərinin ifalarını böyük maraqla izləyiblər.

*"XIZI", R.M.*
*11 sentyabr 2023-cü il*

# Xızı rayonunda "Heydər Əliyev və Azərbaycan dili" mövzusunda tədbir keçirilib

**Avqustun 1-i respublikamızda Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd olunur. Bu əlamətdar gün Ümummilli Lider Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən təsis edilib. Ümummilli Lider həmin Fərmanı latın qrafikalı Azərbaycan əlifbasına keçidin respublikamızda 2001-ci ilin avqustunda bütövlükdə tam təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycanın ictimai-siyasi həyatında, yazı mədəniyyətinin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq imzalayıb.**

**"Dil ədəbiyyatla, mədəniyyətlə, mənəviyyatla bağlıdır. Bunlarsız isə vətənpərvərlik formulu yoxdur."**
**Heydər ƏLİYEV,**
**Ümummilli Lider**

**"Azərbaycan dili xalqımızın mənəvi sərvəti, dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmaz təməlidir."**
**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**





Ulu Öndərin ideyalarını layiqincə davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev doğma dilimizə həssaslıqla yanaşır. Dövlət başçısının həyata keçirdiyi mühüm tədbirlərdən biri 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı kütləvi nəşrlərin latın qrafikasına keçirilməsi prosesini sürətləndirmişdir.

"Dil millətin simasını səciyyələndirən amillərdən biri, onun milli sərvətidir. Millətin dilinin dövlət dili statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu məqam millətin millət olaraq təsdiqidir. Çünki dilin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda, dilinin zənginliyinin sübutudur."

Bu fikirlər Xızıda "Heydər Əliyev və Azərbaycan dili" mövzusunda təşkil olunmuş tədbirdə səslənib.

Xızı rayonunda "Heydər Əliyev İli" çərçivəsində "1 avqust - Azərbaycan əlifbası və Azərbaycan dili Günü" ilə əlaqədar "Heydər Əliyev və Azərbaycan dili" mövzusunda tədbir keçirilib.

Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə avqustun 1-də Xızı şəhərindəki Heydər Əliyev Mərkəzinin konfrans zalında keçirilmiş tədbirdə Xızı RİHBA-nın işçiləri, YAP Xızı rayon təşkilatının fəalları, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyinin əməkdaşları, ziyalılar və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dilinin hərtərəfli inkişafı, ümumişlək dilə, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın hegemon dövlətlərinin və beynəlxalq təşkilatların ən yüksək kürsülərində səslənməsi uğrunda fəaliyyətindən, həyata keçirdiyi islahatlardan söhbət açıb.

Tədbirdə dilimizi xalqımızın ən böyük milli sərvəti hesab edən Ümummilli Liderin Azərbaycan dili və əlifbası, xalqımızın mənəvi dəyərləri ilə bağlı imzaladığı fərman və sərəncamlar, ədəbi dilin qorunması, inkişafı və düzgün tətbiq olunması istiqamətində görülmüş işlər və bu işlərin uğurlu nəticələrindən bəhs edən geniş çıxışlar dinlənilib.

Sonda Ulu Öndər Heydər Əliyevin Azərbaycan dili və azərbaycançılıq məfkurəsi ətrafında çoxşaxəli fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

*"XIZI", R.M.*
*01 avqust 2023-cü il*

# Ümumtəhsil məktəblərində "Bilik günü" qeyd olunub



**Xızı rayonunda "15 sentyabr - Bilik günü" ilə bağlı keçirilmiş tədbirlərdə Xızı RİHBA-nın rəsmiləri, valideynlər, ictimaiyyət nümayəndələri, sabiq məzunlar, müharibə iştirakçıları, təhsil işçiləri, müəllim və şagird kollektivləri iştirak ediblər.**

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirlərdə müəssisə rəhbərləri çıxış edərək yeni tədris ilində qarşıya qoyulan məqsədlərdən, təhsil sahəsində aparılan islahatlardan söz açaraq, məktəb məzunlarının qəbul imtahanlarındakı uğurlarından danışıblar.

Tədbirlərdən sonra məktəblərdə şagirdlər, xüsusilə də birinci sinif şagirdləri müəllimlərlə görüşüb, sinif otaqları, dərs cədvəli ilə tanış olub və siniflərin növbəliliyi barədə məlumatlandırılıblar.



Belə tədbirlərdən biri M.Müşfiq adına Giləzi tam orta məktəbində keçirilib.

Tədbirdə çıxış edən məktəbin direktoru Svetlana Rüstəmova əlamətdar gün münasibətilə iştirakçıları təbrik edib, ilk dəfə məktəbə qədəm qoyan "birincilər"ə uğurlar arzulayıb.

Digər çıxışçılar da "Bilik günü" münasibətilə müəllim kollektivinə və məktəblilərə xoş ürək sözlərini və səmimi təbriklərini ünvanlayıblar.

Tədbirin sonunda simvolik "İlk zəng" çalınıb. "İlk zəng"i Vətən müharibəsinin şəhidi Vidadi Allahverdiyevin oğlu Fazil Allahverdiyev səsləndirib.

***

**İlk dərslər "Heydər Əliyev Azərbaycanın xilaskarı və qurucusudur" mövzusuna həsr olunub**

Bütün ümumtəhsil müəssisələrində 2023-2024-cü tədris ilində ilk dərslər "Heydər Əliyev Azərbaycanın xilaskarı və qurucusudur" mövzusuna həsr olunub. Şagirdlər Ümummilli Lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti, dahi rəhbərin Azərbaycan xalqı və Azərbaycan dövləti naminə gördüyü mütərəqqi işlər barədə ətraflı məlumatlandırılıblar.

*"XIZI", R.M.*
*15 sentyabr 2023-cü il*

**Möhtərəm Prezidentimizin latın qrafikalı əlifbaya keçidlə bağlı fərmanından sonra respublikamızın bütün sahələrində Azərbaycan dilinin tətbiqi uğurla həyata keçirilir.**

# Dilimiz varlığımızdır

Bəşər aləminə Nizamilər, Füzulilər, Nəsimilər, Xətailər bəxş etmiş Azərbaycan dövlətinin dili çox ahəngdar və qəlbəyatımlı dildir. Digər dillərdən öz rəvanlığı, sadəliyi ilə seçilir.

Azərbaycan dilinin inkişaf yolu heç də hamar olmamışdır. Ana dilimizin inkişafına qayğı bəzən millətçilik kimi qələmə verilmişdir.




Bütün bunların nəticəsi olaraq dil sahəsində bir sıra problemlər yığılıb qalmışdır. Burada söhbət adi ünsiyyətdən yox, ana dilinin, xalqın taleyi, milli varlığı, mədəniyyəti, psixologiyası ilə bağlı olub, ictimai-siyasi məna daşımasından gedir.

Bir adam əgər bir neçə xarici dildə sərbəst yazıb oxuya bilirsə, bundan sonra öz ana dilini öyrənirsə, bu o demək deyil ki, həmin şəxs öz ana dilini mükəmməl bilir. Söhbət ondan gedir ki, insan ana ağuşundan başlayaraq ana dili dünyasında böyüyür. Ana dili laylalar və nağıllar dünyasında xumarlanır, ilk duyğu və düşüncələri, həyat təsəvvürləri ana dili əsnasında yaranır. Harada Azərbaycan dilinin işlədilməsinə maneə varsa, aradan qaldırılmalıdır.

Respublikanın ərazisində yaşayan başqa millətin nümayəndələri ilk növbədə uşaqlarını həmin xalqın dilini öyrənməyə sövq etməlidir. İndi paytaxtımızın bir sıra müəssisələrində Azərbaycan dili kursları təşkil edilmişdir. Latın əlifbasına keçid isə bütün bunlara yeni bir təkan verib. Bu kurslar başqa millətlərin nümayəndələrinin Azərbaycan dilinin öyrənməsinə həvəsi artırır.

Ulu Öndər, Ümummilli Lider Heydər Əliyevin ölkəmizin müstəqilliyi və tərəqqisi naminə fəaliyyətindən bəhs edən silsilə kitabların təqdimatı mərasimində çıxış edən Milli Məclisin deputatı, Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərovun dilimiz haqqında dediklərini oxucuların nəzərinə çatdırmaq istəyirik:

"Prezidentimizin Azərbaycan dili qarşısındakı xidmətləri təxminən 500 il bundan qabaq Şah İsmayıl Xətainin göstərdiyi xidmətlərdən sonra ən yüksək xidmətlərdir. Yəni, Xətaidən sonra dövlət adamları Azərbaycan dilinə bu qədər böyük qayğı göstərməyiblər. Azərbaycan dili ilk dəfə Vaşinqtonda, Londonda, Parisdə səsləndi. Bir var ki, bu, adi bir düşüncənin ifadəsi kimi səslənsin. Bəlkə də Azərbaycan dili zəif bir düşüncə ilə səslənən olsaydı, biz Azərbaycan dilinə bu qədər nüfuz qazandıra bilməzdik. Məhz Heydər Əliyevin təfəkkürü və idrakı ilə Azərbaycan dili dünyaya yol tapdı və dünyada belə bir dilin olması barədə dünyanın inkişaf etmiş dilləri ilə üz-üzə gələ biləcək və inkişaf etmiş dillərin daşıdığı, adət etdiyi təfəkkürün səviyyəsində təfəkkür ifadə edəcək dillə tanış oldular".

Bir də ki, mütəxəssislərimiz qeyd edirlər ki, əvvəllər bədii ədəbiyyatı çoxları mütaliə edirdi. Bu da insanın fəal formalaşmasına müsbət təsir göstərirdi. Hal-hazırda bədii ədəbiyyat oxuyanları barmaqla saymaq olar. Bunun səbəbini isə televiziyanın, radionun imkanlarının genişlənməsi, mətbuat, internet aləmi ilə bağlayırlar. Amma bədii ədəbiyyatların insan həyatında rolu əvəzsizdir.

Gəlin etiraf edək ki, ölkəmizdə fəaliyyət göstərən rusdilli məktəblərdə Azərbaycan dilinə ögey münasibət bəslənilir. Amma həmin şagirdlər bilməlidirlər ki, gələcəkdə onların Azərbaycan dilini zəif bilməsi bütün sahələrdə öz təsirini göstərəcəkdir. Lazımı iş yerləri ilə təmin olunmayacaqlar. Axı bütün idarələrdə dəftərxana, kargüzarlıq işləri Azərbaycan dilində aparılmağa başlanıb.

Bakı şəhərində yaşayan qeyri millətlərin çoxu Azərbaycan dilini ya heç bilmir, ya da ki, çox zəif bilir.

Azərbaycanın ucqar bir kəndində işləyən həkim hansı millətdən olur-olsun, əgər o, yanına gələn xəstəsini onun başa düşdüyü dildə dindirərsə, xəstənin həmin həkimə inamı daha artıq olacaqdır. Əgər fəhlə ilə müdirin ünsiyyəti eyni dildə olarsa, bu, istehsal münasibətinə öz təsirini göstərəcəkdir.

Kadr seçkisi də bu sahədə böyük rol oynayır. Kadrlar yerləşdirildikdə onların doğma Azərbaycan dilini bilməsi səviyyəsi əsas göstəricilərdən olmalıdır. Bu gün respublikamızda bu problemləri həll etmək üçün gözəl şərait yaranıb, dil məsələsinin demoqrafik həlli mümkündür.

*"XIZI", R.M.*

# Payız-qış mövsümündə yanğın təhlükəsizliyi qaydalarına diqqət artırılmalıdır

**Yanğınların statistikası göstərir ki, payız-qış mövsümündə havaların soyuması, insanların istilik sisteminə tələbatlarının yaranması və bu məqsədlə elektrik və qaz təsərrüfatından daha çox istifadə etməsi nəticəsində yanğınların sayı yaz-yay dövrü ilə müqayisədə artır. Dünyanın hər yerində olduğu kimi, respublikamızda da payız-qış mövsümündə bu artım qeydə alınır və yanğınların çox hissəsi yaşayış sektorunun payına düşür. Çox təəssüf ki, bu hadisələrin qarşısını hələ tamamilə almaq mümkün deyil. Ancaq yanğınların sayını minimuma endirmək, hadisə zamanı insan itkisinin qarşısını almaq mümkündür.**

Respublika ərazisində yanğın təhlükəsizliyinin təmin edilməsi üçün Dövlət Yanğın Nəzarəti Xidməti nəzarət tədbirlərini icra edir və hər il payız-qış mövsümünün başlanması ilə əlaqədar müxtəlif qabaqlayıcı tədbirlər həyata keçirir.

Baş verən ən faciəli yanğın hadisəsi insan tələfatı ilə nəticələnən yanğınlardır və təbii ki, bu da fərdi yaşayış evlərində və mənzillərdə baş verən yanğınlar zamanı qeydə alınır. Mütəmadi olaraq, əhali arasında təbliğat xarakterli söhbətlər aparılsa da, kütləvi informasiya və təşviqat vasitələrindən istifadə edərək maarifləndirmə işləri görülsə də vətəndaşlarımız eyni səhvləri yenidən buraxır, beləliklə də yeni-yeni yanğınlara, digər fəlakətlərə yol açırlar. Odur ki, hündürmərtəbəli binalara, yaşayış evlərinə baxışların keçirilməsi, əhali arasında yanğın-texniki biliyin artırılması məqsədilə təbliğat xarakterli işlərin görülməsi vacibdir və bu məsələ daimi olaraq müəssisə rəhbərlərinin diqqətində olmalı, Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşları tərəfindən verilmiş göstəriş və tövsiyələrin icrası ilə bağlı müvafiq tədbirlər görməlidirlər.

Payız-qış mövsümünün başlanması ilə əlaqədar hər il Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşları yanğınların və insan tələfatının qarşısını almaq məqsədilə təbliğat xarakterli tədbirlər həyata keçirirlər.

Yanğınların təhlilinin nəticəsi göstərir ki, mənzillərdə yanğınların baş verməsinin əsas səbəbi elektrik və qaz cihazlarının quraşdırılması və istismarı zamanı yanğın təhlükəsizliyi qaydalarının pozulması, odla və qaynaq vasitəsilə işlər görülərkən ehtiyatsızlıq, uşaqların odla decəlliyi və s. olmuşdur. Ona görə də respublika ərazisində payız-qış mövsümündə havaların soyumasını nəzərə alaraq, yanğınların baş verməsinə şərait yaradan amillərin aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin gücləndirilməsi məqsədilə yaşayış binalarında sakinlər arasında maarifləndirmə işləri aparılmış, açıq alovdan, yeni şam və məşəldən istifadənin, sobanın



üzərində və yanında paltar qurudulmasının, kustar üsulla düzəldilmiş elektrik və ya qaz cihazlarından istifadənin, bacaların yaxınlığındakı çardaqlarda asan alışan maye və maddələrin, məişət qaz balonlarının saxlanılmasının, nasaz cihazların istismarının, uşaqların odla decəlliyinin real yanğın təhlükəsi yaratdığı əhalinin nəzərinə çatdırılmışdır. Eyni zamanda, bu məqsədlə sakinlərə Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən hazırlanmış, yanğın təhlükəsizliyi qaydalarını ehtiva edən "Vətəndaşların nəzərinə!" adlı yaddaş vərəqələrinin paylanması, binaların lift kabinələrinə "Mənzildə yanğın zamanı davranış qaydaları" adlı stikerlər yerləşdirilməsi təmin edilmişdir. Bu işə icra hakimiyyətlərinin mənzil-kommunal istismar sahələrinin, qaz və elektrik enerjisinin istismarı idarələrinin, bələdiyyələrin nümayəndələri də cəlb edilmişdir.

Əhali ilə görüşlərdə yanğına qarşı təbliğat apararkən onların nəzərinə çatdırılmalıdır ki, yaşayış binalarının bloklarında və mərtəbələrində quraşdırılmış paylayıcı elektrik lövhələrinin "Elektrik qurğularının təhlükəsizliyi qaydaları"nın tələblərinə uyğun olaraq istismar edilməsinə, elektrik lövhələrində yalnız standarta uyğun elektrik qoruyucularından istifadə olunmasına diqqət yetirilməlidir. Həmçinin, çardaqların daim təmiz saxlanılması, taxta konstruktiv elementlərinin odadavamlı məhlulla hopdurulması, mövcud pəncərələrin şüşələnməsi, çardağa çıxış qapılarının, eləcə də yanğına qarşı divarlarda və ventilyasiya kameralarında quraşdırılmış qapıların kip vəziyyətdə, bağlı olması təmin edilməlidir. Yaşayış binalarının zirzəmiləri daim təmiz saxlanılmalı, giriş qapıları bağlı vəziyyətdə olmalı və açarlar birinci mərtəbədə yerləşən mənzillərdən birində və yaxud komendantda olmalıdır.

Yaşayış binalarının birinci mərtəbəsində layihə üzrə nəzərdə tutulmuş yanğın keçidlərinin açıq vəziyyətdə saxlanılmasına, başqa məqsədlər üçün istifadə edilməməsinə daim diqqət yetirilməlidir. Keçidlərin tutulmasına imkan verilməməlidir.

Yaşayış evlərində elektrik və qaz cihazlarının təhlükəsiz istifadə olunmasına, tüstü boru və bacalarının düzgün quraşdırılmasına, təmizlənməsinə fikir verilməlidir. Yaşayış binalarının birinci mərtəbəsində, zirzəmisində asan alışan və yanar mayelərin saxlanılması, təxliyə yolları hesab edilən pilləkən qəfəslərində və dəhlizlərdə əl damlarının yaradılması, eləcə də pilləkən marşları altında və onların meydançalarında əşyaların yığılması qadağandır.

Hündürmərtəbəli yaşayış binalarının mərtəbələrində yanğına qarşı daxili yanğın su kranlarını şlanqlarla, birləşdirici başlıq və lülələrlə təchizini, su təzyiqini qaldırmaq üçün nəzərdə tutulmuş nasosların, avtomatik yanğınxəbərverici siqnalizasiya və yanğınsöndürmə qurğularının, tüstü xaricetmə və ventilyasiya sistemlərinin işlək vəziyyətdə olması təmin edilməlidir.

Qəsəbə və kənd yaşayış məntəqələrində, fərdi həyətyanı sahələrdə də quru otların daşınması, yığılması, sobalardan istifadə zamanı yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunmasına da diqqət yetirilməlidir. Bütün bunlar isə, əlbəttə ki, mənzillərdə, fərdi yaşayış sahələrində yanğınların baş verməməsinə və hadisə zamanı insan itkisinin qarşısının alınmasına xidmət edir.

Yanğınların baş verməməsi üçün hər bir vətəndaş yanğın təhlükəsizliyi qaydalarını bilməli və onlara əməl etməlidir!

*Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti*

Baş redaktor:
**Rafael Məmmədov**
Tel: (050) 965-88-89;
(050) 547-65-39;
(070) 831-95-96
*Whatsapp:* (050) 965-88-89;
(070) 831-95-96
*Elektron ünvan: xizi.r.m@mail.ru*



*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.*
*VÖEN: 7800023401*
*H/h: 33080019442400230124*

**Qəzet "Bəxtiyar - 4 İKF" mətbəəsində çap edilib.**

**Qəzetdə gedən yazılara görə müəlliflər özləri məsuliyyət daşıyırlar.**

*Tiraj: 600*
*Sifariş: 235*
*Ünvan: Xızı şəhəri, Vüsaqi küçəsi - 28*